

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 186 (20.840)

4 oktyabr 2013-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlmişdir.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 3-də Sumqayıta səfəri çərçivəsində Dövlət Neft Şirkətinin “Azərikimya” İstehsalat Birliyinin tabeliyində olan Üzeyir Hacıbəyli adına “Kimyaçı” Mədəniyyət Sarayının qarşısındakı meydanda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

* * *

Oktyabrın 3-də Sumqayıtda “Sağlam qida” aqrar-sənaye kompleksi istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kompleksin açılışında iştirak etmişdir.

İqtisadi inkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, bu iqtisadi qurum Sumqayıtın sənaye zonasında 7 hektar ərazidə istehsal və xidmət sahələrini əhatə edən 3 iri müəssisədən ibarət müasir aqrar-sənaye kompleksidir. Diqqətə çatdırıldı ki, kompleksin tərkibinə çörək istehsalı zavodu, taxıl anbarı, un dəyirmanı kompleksi, həmçinin qida məhsullarının saxlanılması, daşınması və satışı üzrə logistik mərkəz daxildir.

Kompleksin çörək istehsalı zavodunun foyesində ümummilli lider Heydər Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılmışdır.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

# Muxtar respublikada payızlıq taxıl əkininə başlanılmışdır

Taxıl məhsulları istehsalının genişləndirilməsi ərzaq təhlükəsizliyinin təminatında mühüm əhəmiyyət daşıyır. Bu baxımdan muxtar respublikada əsas strateji sahə olan taxılçılığın inkişafına xüsusi diqqət yetirilir. Hər il taxıl əkini sahələri genişləndirilir, mütərəqqi üsullardan istifadə olunaraq bol məhsul istehsal edilir.

Bir neçə gündür ki, muxtar respublikamızda payızlıq taxıl əkininə başlanmışdır.

Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Bərəkət” Toxumçuluq Təsərrüfatına gəlmiş, taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, bu günə qədər muxtar respublikada payızlıq taxıl əkini üçün 8 min 600 hektar sahədə şum aparılmış, 400 hektar sahədə səpin işləri başa çatdırılmışdır. Əkin şırım üsulu ilə aparılır. Bu da məhsuldarlığın artırılmasında, torpaqların şoranlaşmasının qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır.

Toxumçuluq təsərrüfatının taxıl əkini sahəsi 400 hektardır. Ərazidə torpağın münbitliyinin artırılması məqsədilə meliorativ tədbirlər həyata keçirilmiş, şoranlaşmanın və eroziyanın qarşısı alınmışdır. Əkin zamanı yerli iqlim şəraitinə uyğun yüksək reproduksiyalı “Quality” toxum sortundan istifadə olunur. Əkinə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin texnikaları cəlb olunmuşdur.

Bildirilmişdir ki, əkin zamanı əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Çünki sağlam cücərtilərin alınmasına həm də keyfiyyətli səpin aparmaqla nail olmaq mümkündür. Hazırda muxtar respublikanın taxıl sahələrində səpin və becərmə işləri aqrotexniki qaydalarda aparılır. Bu da məhsuldarlığın yüksəldilməsinə və bol məhsul istehsalına imkan verir.

Ali Məclisin Sədri muxtar respublikada taxıl əkininin şırım üsulu ilə aparılmasının əhəmiyyətli olduğunu bildirmiş, payızlıq taxıl əkininin optimal müddətdə başa çatdırılması, torpaq mülkiyyətçiləri arasında mütərəqqi əkin və becərmə üsullarının tətbiqi ilə bağlı maarifləndirici tədbirlərin aparılması barədə tapşırıqlar vermişdir.





# Torpaq sahələrinin suvarılması üçün tədbirlər görülür





Oktyabrın 3-də Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma su təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, muxtar respublikada mövcud su potensialından səmərəli istifadə nəticəsində yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmış, ərazilərin su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Hər il hidrotexniki qurğularda təmir-bərpa işləri aparılır, istismara yararsız su xətləri yeniləri ilə əvəz olunur. Hazırda Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Araz çayından qidalanan “Azərbaycan” nasos stansiyasının istismara yararsız boru xətləri dəyişdirilir.

Boru xətlərinin ümumi uzunluğu 16,6 kilometrdir. Bu günə qədər 13,7 kilometr məsafədə boru xətlərinin çəkilişi başa çatdırılmışdır. Boru xətlərinin çəkilişindən sonra mövcud supaylayıcı hovuzlarda da təmir-bərpa işləri aparılacaqdır. Bununla da, 1200 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılacaq, eyni zamanda 1000 hektardan artıq əkin sahəsində suvarma tədbirləri yaxşılaşdırılacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Yeniliklər könül açır

**İndi Şərur rayonunun bir çox kəndlərində bu mənzərəyə rast gəlmək olar: bir yanda tikinti işləri gedir, bir yanda yol çəkilir, başqa tərəfdə isə içməli su xəttinin çəkilişinə və ya dəyişdirilməsinə, kanalizasiya şəbəkəsinin qurulmasına başlanılıb. Bir sözlə, dövlətin yüksək qayğısı sayəsində Şərurun da abadlığı, daha müasir görkəm alması, insanların daha rahat, firavan yaşaması üçün bütün gərəkli tədbirlər həyata keçirilir.**

Muxtar respublikamızı, Şəruru əhatə edən quruculuq, yeniləşmə Xanlıqlar kəndini də ağuşuna alıb. Hazırda bu yaşayış məntəqəsi geniş tikinti meydançasını xatırladır.

Rayonun iri təhsil ocaqlarından biri Xanlıqlarda yerləşir. Məktəbin yaşı çoxdur. Binasının şəraiti heç də yaxşı deyildi. Zirzəmi ilə birlikdə üçmərtəbəli köhnə bina yenidən qurulur. Təhsil ocağına daha bir korpus da artırılıb. 396 şagird yerlik məktəb binası bu ərazinin ən iri məktəblərindən biri olacaq.

Artıq obyektdə hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub, qapı-pəncərələr salınıb, elektrik, rabitə, su, istilik xətləri çəkilib. İndi fasad hissədə nəzərdə tutulmuş yerlərə milli naxışlarla bəzədilmiş və cilalanmış travertin üzlüklər vurulur, mərtəbələrarası pilləkənlərə və dəhlizlərə üzlük döşənir, divarlar rənglənir, həyətdə abadlıq işləri görülür, yaşıllıq zolaqları salınır, qazanxana, elektrik avadanlıqları və qızdırıcılar quraşdırılır. İş icraçısı Ərrəhman İmanov dedi ki, işə təzə başlayanda burada Xanlıqların özündən və ətraf kəndlərdən olan xeyli işçi qüvvəsi var idi. Hazırda isə 15-20 nəfər çalışır ki, onlar da, əsasən, təcrübəli ustalardır. Bütün fəhlə və quraşdırıcılara xüsusi geyimlər verilib, onların işə gəlib-getməsi üçün nəqliyyat vasitəsi ayrılıb, hər biri texniki təhlükəsizlik qaydaları ilə təlimatlandırılıb. Obyektdə işçi qüvvəsi, mal-material və texnika sarıdan heç bir problem yoxdur. Bütün bunlara görə də iş əvvəldən öz ahəngi ilə davam edir. Hər kəsin gördüyü iş günün sonunda ölçülüb müəyyənləşdirilir və buna müvafiq zəhmətHaqqı hesablanır. Ona görə də hamı çalışır, daha çox, həm də keyfiyyətli iş görsün ki, aldığı məvacib də artıq olsun.

İnsanın sağlamlığı cəmiyyətin sağlamlığıdır. Yalnız sağlam olanlar xalqın xeyrinə qurub-yaratmaq üçün özünün yaradıcı imkanlarından tam istifadə edə bilər. Ona görə də tibbi xidmətin müasir standartlar səviyyəsində qurulması, vətəndaşların sağlamlığının etibarlı təminatı, səhiyyə ocaqlarının fəaliyyətinin davamlı olaraq modernləşdirilməsi Azərbaycan dövlətinin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Odur ki, Xanlıqlarda ikimərtəbəli həkim ambulatoriyası da ucaldılıb.

Yerlərdə qurulan kənd mərkəzləri əhalinin bir iş üçün bir neçə ünvana üz tutmaması, istəyini bir binanın daxilində yerləşən müxtəlif təşkilatlarda həyata keçirməsi baxımından çox sərfəlidir. Bu məqsədlə Xanlıqlarda tikilən ikimərtəbəli kənd mərkəzində də hər cür şərait yaradılır. Yeni binada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, YAP ərazi ilk təşkilatı, rabitə evi, klub, kitabxana, baytarlıq məntəqəsi və digər təşkilatlar fəaliyyət göstərəcək.

İkimərtəbəli, yaraşıqlı xidmət mərkəzində kənd sakinləri və qonaqlar ərzaq, sənaye və təsərrüfat malları mağazalarının, ət satışı dükanının, qadın gözəllik salonunun, bərbər, dərzi və ayaqqabı təmiri ustalarının xidmətlərindən yararlanacaqlar. Bu binalar da qış aylarında mərkəzləşdirilmiş qazanxana sistemi ilə qızdırılacaqdır. Həyətlərdə yaşıllıqlar salınacaq, su xətti çəkiləcək, piyada yolları düzəldiləcək, oturacaqlar qoyulacaqdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları obyektlərdə son tamamlama işləri görürlər. Yeri gəlmişkən onu da deyək ki, onlar kənddə yol boyu yerləşən şəxsi həyətlərə divar çəkilməsi, suvanması və rənglənməsi işlərini də həyata keçiriblər.

Şərur Rayon Yol-Təmir Tikinti İdarəsinin kollektivi tərəfindən Xanlıqlar kəndinin daxilində 2,5 kilometrlik yol yenidən qurulub.

Xanlıqlar kəndinin sakinləri ilə də görüşüb söhbət etdik. Onların üzündən sevinc yağırdı, sonsuz qürur, iftixar hissi keçirirdilər. Kənd ağsaqqalı, yaşı səksəni haqlamış İsmayıl Səfərovun dediklərindən:

– Müstəqil dövlətimizdə həyata keçirilən bütün tədbirlər ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Onun əsas amalı, əsas məqsədi həyatı boyu xalqına xidmət etmək olubdur. Bu gün eyni siyasət Azərbaycanımızın hər yerində, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir. Bunun bariz nümunəsini artıq şəhər görkəmi almış rayonumuzun əksər yaşayış məntəqələrinin timsalında aydın görürük. "Heydər Əliyev ili"ndə isə yaşadığım doğma Xanlıqlar kəndi də yeniləşən kəndlərimizin sırasına daxil olur. Budur müstəqilliyimizin təntənəsi, budur Heydər Əliyev ideyalarının bəhrələri. Bu yaşadək Xanlıqlarda belə əzəmətli tikinti-quruculuq işlərini görməmişəm. İndi ürək necə sevinməsin, fərəhlə döyünməsin? Yeniliklər könül açır axı. Sağ olsunlar təşəbbüskarları, təşkilatçıları, 2013-cü ildə yaddaşımıza silinməz izlər saldılar, bizi çox sevindirdilər.

Xanlıqlar kənd sakini, təqaüdçü müəllim Məhəmmədəli Cəlilov da fikirlərini böyük həvəslə bizimlə bölüşdü:

– Kəndimizdə bu cür geniş abadlıq-quruculuq işlərinin aparılması ürəyimizi dağa döndərir. Uşaqlarımız istifadəyə veriləcək yeni məktəbdə oxuyacaq, mükəmməl təhsil alacaqlar. Bir neçə ildən sonra kəndimizdən çıxan ziyalıların sayı da artacaq. "Ziyalı" sözünü əbəs yerə demədim. O, bir nurdu, işıqdı. Elə bir işıq ki, insanları öz ətrafına toplaya bilir, gücü, qüvvəni birləşdirir və faydalı istiqamətə yönəldir. Mən savadlı və savadsızlığın nə demək olduğunu, onların fərqini çox yaxşı başa düşürəm. Ona görə də kəndimizdə bu cür müasir məktəbin istifadəyə veriləcəyi məni çox sevindirir. İnşa olunan həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri də az əhəmiyyət daşımır. Dövlətimiz bunları yaradır ki, yaşayış səviyyəmiz yaxşılaşsın, mədəni cəhətdən öndə gedək. Təbii ki, göstərilən diqqət və qayğıdan mənəvi rahatlıq tapırıq. Ən əsası isə dövlətimizə və sabahımıza olan inamımız artır. İnsanı həyata bağlayan, onu yaşadan da elə inam deyilmi?

***...Səhərdir. Günəş hələ üfüqdən boylanmamış Xanlıqlarda yeni həyat başlayır. Kimi kartof yığımına, kimi bostan-tərəvəz sahələrinə tələsir, kimi də mal-heyvan sürülərini qabağına qatıb örüşə aparır. Çöllərdən şum traktorlarının, kəndin mərkəzində isə ekskavatorların, asfaltyayan texnikaların səsi eşidilir. Bu, Xanlıqların daha xoş, abad və yaraşıqlı günlərinin sədasıdır.***

✍ Cəfər ƏLİYEV

# Dünyanın ən məşhur brend və markalı məhsullarının satıldığı ünvan – rüsumsuz ticarət mağazası

Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin gömrük nəzarəti zonasında Naxçıvan Muxtar Respublikasında ilk rüsumsuz ticarət mağazası xüsusi lisenziya əsasında "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı tərəfindən təsis edilib. Bu fəaliyyət növünün qanunvericiliyin tələbləri çərçivəsində həyata keçirilməsini təmin etməkdən ötrü Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin gömrük nəzarəti zonasında xüsusi bina inşa olunub. Rüsumsuz ticarət mağazası dinamik sosial-iqtisadi inkişafı, sabitliyi, iqtisadi əlaqələrin genişləndiyini, yeni ticarət sahələrinin formalaşdığını göstərir.

Muxtar respublikada rüsumsuz ticarət mağazasının fəaliyyət göstərməsi burada eyniadlı gömrük prosedurunun tətbiqinə şərait yaradır. Bu isə, öz növbəsində, sosial-iqtisadi, ticarət və mədəni sahədə daha bir yenilikdir.

Mağazada müxtəlif adda məhsullar satışa çıxarılır. Satış yeri bölmələrə ayrılıb. Vitrindəki ətriyyatlar, müxtəlif növ şirniyyatlar, geyim və içkilər dünyanın bu sahələrdə ən məşhur brend və markalarını təmsil edir. Milli aksesuarlar bölməsində isə xalqımızın və regionun qədim tarix və mədəniyyətini, milli dəyərlərimizi əks etdirən əşyalar, əl işi nümunələri və milli geyimlər satılır.

Qeyd edək ki, gömrük qanunvericiliyinə əsasən, rüsumsuz ticarət mağazasında yerləşdirilən malların satışı zamanı gömrük rüsumları və vergilər alınmır. Həmin malların satışı isə gömrük nəzarəti altında həyata keçirilir. Bu mağazanın xidmətindən yalnız gömrük sərhədini keçən fiziki şəxslər istifadə edə bilirlər. Pərakəndə şəkildə satışa çıxarılan mallardan gömrük rüsumları və vergilərinin alınmaması onların bazar qiymətlərindən ucuz satılmasına zəmin yaradır.

Rüsumsuz ticarət mağazası əhaliyə dünya standartları səviyyəsində göstərilən xidmətin yeni bir növü və nümunəsidir. Burada dünyanın ən məşhur markalarına aid keyfiyyətli məhsulların sərfəli qiymətlərlə satışı təşkil olunur. Bununla da, gömrük sərhədini keçən şəxslər həm də Avropa və dünyada istehsal olunan müxtəlif növ məhsullarla tanış olmaq, onları əldə etmək imkanı qazanırlar. Muxtar respublikamızda rüsumsuz ticarət mağazasının fəaliyyət göstərməsi, öz növbəsində, gömrük fəaliyyətinin genişlənməsinə də şərait yaradır.

Dünyanın yüzdən çox tanınmış şirkətinin istehsal etdiyi məhsulların satışını reallaşdıran rüsumsuz ticarət mağazası ikinövbəli iş rejimində səhər saat 8-dən axşam saat 24-dək fəaliyyət göstərir.

✍ Kərəm HƏSƏNOV

***Qış fəsli yaxınlaşmaqdadır. Naxçıvan şəhərində və rayonlarımızda qışa hazırlıqla bağlı bir sıra tədbirlər həyata keçirilir. İnsan amilinə diqqət və qayğının bir nümunəsi kimi bu tədbirlər cəmiyyətdə maraq doğurur, diqqətlə izlənilir. Payız-qış mövsümünə hazırlıq bu baxımdan ən zəruri məsələlərdən biridir. Bu məqsədlə avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə yeni mövsümə hazırlıqla bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Ötən günlərdə payız-qış mövsümünə hazırlığın vəziyyəti haqqında oxuculara dolğun məlumat vermək üçün Ordubad rayonunda olduq.***

# Ordubad rayonunda payız-qış mövsümünə hazırlıq davam etdirilir

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Etibar İsmayılovla söhbətimizdə bildirdi ki, rayonda elektrik, rabitə, qaz təsərrüfatları və digər xidmət sahələrinin vəziyyətinin araşdırılması ilə bağlı rayon İcra Hakimiyyətində yaradılmış komissiya tərəfindən yoxlamalar aparılıb, nöqsan və çatışmazlıqlar aidiyyəti təşkilatların diqqətinə çatdırılıb. Çatışmazlıqların aradan qaldırılması üçün müəyyən işlər görülüb. Bu işlər hazırda davam etdirilməkdədir.

Görülən işlərə baxmayaraq, bu sahədə bir sıra çatışmazlıqlar da mövcuddur. Onların həlli üçün müvafiq tədbirlər həyata keçirilir. Əhalinin və təsərrüfat subyektlərinin enerjiyə və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinin keyfiyyətlə görülməsi, lazımi mal-material ehtiyatının yaradılması diqqətdə saxlanılır.

İcra başçısının müavini onu da dedi ki, rayon təsərrüfatlarının payız-qış mövsümünə hazır olması, əhalinin istilik, təbii qaz, elektrik enerjisi və içməli su ilə fasiləsiz təmin edilməsi məqsədilə bütün sahələri əhatə edən tədbirlər planı hazırlanıb, onların icrasını təmin etmək məqsədilə operativ qərargah yaradılıb. Tədbirlər planının icrası zamanı rayon ərazisinin abadlaşdırılması, mənzil fondunun, təhsil, səhiyyə, mədəniyyət, kommunal xidmət sahələrinin payız-qış mövsümünə hazırlığı diqqət mərkəzində olub. Yeni mövsümdə yeni istifadəyə verilən binalar da daxil olmaqla, rayonda 64 müasir qazanxana fəaliyyət göstərəcək. 9 qazanxana vasitəsilə 15 yaşayış binasında 414 mənzil istiliklə təmin olunacaq. Yeni mövsümə hazırlıq bağlı təhsil sahəsi üzrə 23 qazanxana, mədəniyyət sahəsi üzrə 4 qazanxana, idarə, müəssisə və təşkilatlar üzrə 28 qazanxana artıq saz vəziyyətə gətirilib. Məktəb və məktəbəqədər müəssisələrdə payız-qış mövsümü ilə əlaqədar su-kanalizasiya və istilik sistemləri təftiş edilib, cari təmir işləri həyata keçirilib. Bu isə onu deməyə əsas verir ki, rayonun təhsil müəssisələri qış mövsümünü heç bir problem yaşamadan başa vuracaq.

"Ötən ayın əvvəllərindən başlayaraq Ordubad Rayon Elektrik Şəbəkəsinin əhatə etdiyi ərazilərdə transformatorlara yağ əlavə edilib, ayırıcılar quraşdırılıb, yararsız kabellər yeniləri ilə əvəzlənib, naqillərdə qabaritlər bərpa edilib, xətlərin yaxınlığındakı ağaclar budanıb". Bunu Ordubad Rayon Elektrik Şəbəkəsinin direktoru Ramazan Rzayev deyir. Elektrik Şəbəkəsinin direktoru onu da bildirir ki, əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə yeni transformatorlar qoyulub, mövcud olanlar isə daha güclü müasir avadanlıqlarla təchiz olunub. Ötürücü yarımstansiyalar yeni avadanlıqlarla təchiz edilib, binalara və mənzillərə gedən naqillər və kabellər yeraltı kabellərlə əvəzlənib. Stansiya və transformator məntəqələrinin yerləşdiyi ərazilər abadlaşdırılıb. Bu tədbirlər qrafik əsasında aparılıb ki, elektrik enerjisi verilişində fasilələr yaranmasın. Ötən müddətdə iki transformator yarımstansiyası quraşdırılaraq istifadəyə verilib. 21 yarımstansiyada cari təmir, 5 yarımstansiyada isə əsaslı təmir işləri aparılıb.

Ordubad Rayon Qaz İstismarı İdarəsinin rəisi Tural Əzimov isə bildirdi ki, hər il olduğu kimi, cari ildə də təmsil etdiyi qurumda payız-qış mövsümünə ciddi hazırlıq işləri görülür. Onun sözlərinə görə, idarədə əməkdaşlarla birgə ötən mövsümün nəticələri təhlil olunub, həmin mövsümdə yaranmış problemlərin bu mövsümdə də təkrarlanmaması üçün konkret addımlar atılıb: "Payız-qış mövsümünə hazırlıqla əlaqədar tədbirlər, adətən, yaz-yay mövsümündən başlayır və noyabr ayına qədər davam edir. Hazırlıq tədbirləri çərçivəsində praktik tədbirlər görülür. Qazpaylayıcı şəbəkə sisteminin nizamlanması, korroziyaya uğramış qaz xətləri hissələrinin dəyişdirilməsi, təmir olunması, yeni qaz xətlərinin çəkilməsi istiqamətində müvafiq iş aparılır. Qəza vəziyyəti yaradan, binaların şaxtalarından keçən qaz xətləri pilləkən qəfəslərinə çıxarılır, qaz xəttində əsaslı təmir işləri aparılaraq qaztəmizləyici qurğu və avadanlıqlar yerləşdirilir. Bütün bu tədbirlər qarşıdan gələn payız-qış mövsümündə hər hansı bir problem yaranmasının qarşısının alınmasına xidmət edir".

Qış mövsümü ilə əlaqədar abonentlərə verilən qazın həcminin artırılması məsələsinə də aydınlıq gətirən Tural Əzimov dedi ki, qaz həcminin artırılmasının vaxtı öncədən dəqiqləşdirilmir: "Bu rejim qaz istismarı sahələrinin tələbatına uyğun olaraq tənzimlənir. Hava şəraiti gözlənilmədən dəyişərsə, buna uyğun olaraq, abonentlərin qaz təchizatı tənzimlənəcək, qazın həcmi artırılacaq. Ümumilikdə isə gündəlik olaraq qaz istismarı sahələrindən abonentlərin istiliyə olan tələbatı öyrənilir və qazın verilmə həcmi buna uyğunlaşdırılır".

Rayonda əhalinin dayanıqlı rabitə ilə təmin olunması, rabitə xidmətinin keyfiyyətinin yüksəldilməsi məsələsi də diqqətdə saxlanılıb, bu məqsədlə görülən işlər tədbirlər planına uyğun aparılır. Rayon Rabitə İdarəsi tərəfindən qəza hallarının qarşısını almaq üçün ehtiyat hissələrin əldə edilməsi bütün il boyu nəzarətdə olmasına baxmayaraq, mövsümdə elektrik kəsintiləri, normadan fərqli elektrik verilişləri zamanı baş verə biləcək hadisələrin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir. Gərginliyin dəyişməsinə ani reaksiya verən rele qurğuları, stabilizatorlar, abunə qutuları, arabağlantı xətləri üçün qoruyucu bloklar tətbiq edilib. Bundan başqa, xətt təsərrüfatının normativə uyğunlaşdırılması, rabitə kabellərinin elektrik xətləri ilə təhlükəli kəsişmələri qaçılmaz olan yerlərdə yeraltı keçid, yaxud rezin borulardan istifadə edilməsi, rayon mərkəzində və kəndlərdə abadlıq işləri ilə əlaqədar yeraltı rabitə qurğularının tikilməsi, rabitə xətlərinin yer altına keçirilməsi həm kabellərin istismar müddətinin xeyli artmasına, həm də qəza hallarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Qış aylarında generatorlara və akkumulyatorlara ehtiyac artdığından bir neçə ildir ki, avadanlıqlara mərkəzləşmiş qaydada ixtisaslı mütəxəssislər tərəfindən xidmət göstərilir. Avadanlıqlara vahid mərkəzdən xidmət edilməsi qeyri-peşəkar müdaxilənin qarşısının alınmasına, nəticədə, avadanlıqların daim saz olmasına, daha uzun müddət istismar edilməsinə şərait yaradıb.

Ümumiyyətlə, görülən işlərin miqyasına və keyfiyyətinə nəzər salanda belə qənaətə gəlmək olur ki, ötən illərdə olduğu kimi, bu il də rayon əhalisi mövsümün yaratdığı çətinliklərdən əziyyət çəkməyəcək. Çünki bunun üçün əlaqədar qurumlar səfərbər edilib və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilib.

✍ Səbuhi HÜSEYNOV

# Seçki hüququnu pozmağa görə inzibati və cinayət məsuliyyəti

**Konstitusiyamızda Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək, dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüquqları təsbit olunmuşdur. Seçki hüququ əsas insan hüquqlarından biri olub, demokratiyanın təmin edilməsində və inkişaf etməsində mühüm rol oynayır. Seçkilər xalqın iradəsinin düzgün müəyyən edilməsi əsasında demokratik hakimiyyətin formalaşdırılmasının ən mütərəqqi üsuludur. Azərbaycan Respublikasında seçki prosesinə hər hansı kənar müdaxilə qanunla qadağan olunur. İnsan və vətəndaş hüquqları və azadlıqları qanunla nəzərdə tutulmuş hallardan başqa hər hansı yolla məhdudlaşdırıla bilməz. Qanunda nəzərdə tutulmuş hüquqlardan sui-istifadəyə və ya müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsinə görə məsuliyyət nəzərdə tutulur. Qanunu bilməmək məsuliyyətdən azad etmir. Məsuliyyət şəxsin törətmiş olduğu huqüq pozuntusuna görə cavab verməyi vəzifəsidir.**

Seçkilər zamanı vətəndaşların iradə ifadəsinin obyektiv müəyyən edilməsi üçün demokratik seçki prosesinin keçirilməsini təmin edən normativ-hüquqi aktlar mövcuddur. Azərbaycan Respublikasının Seçki Məcəlləsi vətəndaşların seçki hüquqları və onların həyata keçirilməsi qaydası ilə bağlı münasibətləri tənzimləyir.

Seçki Məcəlləsinin 115-ci maddəsində hansı şəxslərin seçki hüququnun pozulmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, cinayət, mülki və ya inzibati məsuliyyət daşıdığı göstərilmiş, seçki hüququnun pozulması və ya məhdudlaşdırılması kimi hesab edilən qanunazidd hərəkətlər sadalanmışdır. Qanunvericiliyin tələbinə əsasən, sadalanan əməllərin xarakteri və ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq, cinayət xarakterli əməllərin törədilməsinə görə məsuliyyət Cinayət Məcəlləsində, inzibati xətalara görə isə məsuliyyət İnzibati Xətalar Məcəlləsində göstərilmişdir.

Cinayət Məcəlləsinin beş maddəsində seçki hüquqlarının aşağıdakı formada pozulmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur:

*- seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə mane olma (159-cu maddə);*

*- seçkilərdə (referendumda) iştirak qaydalarını pozma (159-1-ci maddə);*

*- seçki (referendum) komissiyalarının işinə müdaxilətmə və ya təsir göstərmə (160-cı maddə);*

*- seçki (referendumda iştirak) sənədlərini saxtalaşdırma, bilə-bilə səsləri düzgün hesablamama, yaxud səsvermənin gizliliyini pozma (161-ci maddə);*

*- seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə (308.2-ci maddə).*

Yuxarıda göstərilən cinayət əməlləri müxtəlif üsullarla, ələalma, aldatma, hədələmə, zor tətbiqetmə, zor tətbiqetmə hədəsi ilə törədilə bilər.

Cinayət qanunvericiliyinin tələbinə əsasən, seçki hüququnun pozulmasına görə təqsirli bilinmiş şəxslərə ittiham olunduğu maddənin sanksiyasına uyğun olaraq cərimə, müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə, ictimai işlər, islah işləri və azadlıqdan məhrumetmə cəzaları tətbiq edilir.

İnzibati Xətalar Məcəlləsinin "Siyasi, sosial və əmək hüquqları əleyhinə olan inzibati xətalar" fəslinin on altı maddəsində seçki hüquqlarının pozulmasına görə inzibati məsuliyyət müəyyən edilmiş və bu qəbildən olan inzibati xəta törətmiş şəxslərə inzibati cərimənin tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Həmin inzibati hüquq pozuntularına aşağıdakılar daxildir:

***- seçkiqabağı və ya referendum ilə bağlı təşviqatın aparılması qaydalarının və müddətinin pozulması*** *– yəni seçkiqabağı və referendum ilə bağlı təşviqatın aparılmasının qanunvericiliklə müəyyən edilmiş qaydalarının və müddətinin pozulması, eləcə də qeydə alınmış namizədə seçkiqabağı təşviqatın müddəti başa çatana kimi şərəf və ləyaqətini seçki qanunvericiliyi ilə müəyyən olunmuş teleradio verilişləri təşkilatlarının teleradio proqramlarında və dövri nəşrlərdə onların vəzifəli şəxsləri tərəfindən müdafiə etmək imkanının verilməməsi;*

***- təşviqat-nəşr materiallarını qəsdən məhvetmə və ya namizədin seçicilərlə görüşünə mane olma*** *– mülkiyyətçinin və ya obyekt sahibinin razılığı ilə qanunvericiliklə müəyyən edilmiş yerlərdə asılmış seçkiqabağı (referendum qabağı) təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhvetmə və ya korlama, təşviqat materiallarının yayılmasına mane olma, yaxud namizədin seçicilərlə görüşünə mane olma;*

***- namizəd haqqında bilərəkdən yalan məlumatlar yayma*** *– yəni seçkinin nəticəsinə təsir göstərmək məqsədilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) namizəd haqqında bilərəkdən yalan məlumatlar dərcetmə və ya onları başqa üsulla yayma;*

***- seçki komissiyası (referendumun keçirilməsi üzrə komissiya) üzvünün, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələri nümayəndələrinin hüquqlarının pozulması*** *– yəni seçki komissiyası (referendum keçirilməsi üzrə komissiya) üzvünün, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələri nümayəndələrinin qanunvericiliklə müəyyən edilmiş hüquqlarını, o cümlədən seçki sənədlərinin surətlərinin və məlumatların vaxtında alınması və seçki sənədlərinin təsdiqi ilə bağlı hüquqları pozma;*

***- seçicilər haqqında məlumatların düzgün, tam və vaxtında verilməməsi*** *– yəni seçicilər haqqında məlumatları təqdim edən müvafiq icra orqanı tərəfindən həmin məlumatların düzgün, tam və vaxtında verilməməsi;*

***- seçki bülletenlərinin, səsvermə protokollarının və vəsiqələrinin verilməsi və saxlanması qaydalarının pozulması*** *– yəni seçki komissiyalarının sədrləri tərəfindən seçki bülletenlərinin, səsvermə protokollarının və vəsiqələrinin verilməsi və saxlanması qaydalarının pozulması;*

***- dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə qaydasının pozulması*** *– yəni səsvermə başlandıqdan sonra seçkilərin yekunları və səsvermənin nəticələri barədə protokollar imzalananadək yuxarı seçki komissiyalarının informasiya xidmətlərindən aşağı seçki komissiyalarının informasiya xidmətlərinə məlumatların qəbulunu təsdiq edən siqnallardan başqa hər hansı məlumatın verilməsi;*

***- seçki (referendum) ilə əlaqədar hədə-qorxu və ya zorakılığa çağıran çıxışlar edilməsi və ya bu cür materialların yayılması;***

***- seçicinin bilərəkdən birdən çox seçici siyahısına daxil edilməsi;***

***- seçici siyahıları ilə vətəndaşların tanış olmaq hüququnun və digər hüquqlarının pozulması*** *– yəni seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanın) üzvü tərəfindən vətəndaşların seçici siyahıları (referendumda iştirak etmək hüququ olan şəxslərin siyahısı) ilə tanış olmaq hüququnun pozulması, seçici siyahılarındakı (referendumda iştirak etmək hüququ olan şəxslərin siyahısındakı) yanlışlıqlar haqqında vətəndaşların ərizələrinə qanunvericiliklə müəyyən edilmiş müddətdə baxılmaması, seçici siyahılarına düzəlişlərin edilməsindən imtina barədə vətəndaşa yazılı şəkildə əsaslandırılmış cavab verilməməsi, qeydiyyatdan keçmiş seçicilər barəsində məlumatların vaxtında rəsmiləşdirilməməsi və ya dəqiqləşdirilməməsi;*

***- seçkilərdə (referendumda) iştirak etmək üçün məzuniyyətin verilməsindən imtina etmə*** *– yəni dövlət və ya yerli özünüidarə orqanlarına seçkilərin hazırlanmasında və ya keçirilməsində onun iştirakının təmin edilməsi məqsədilə deputatlığa və ya seçkili orqana (vəzifəyə) qeydə alınmış namizədə, namizədin vəkilinə və ya seçki komissiyasının (referendumun keçirilməsi üzrə komissiyanın) üzvünə qanunvericiliklə müəyyən edilmiş məzuniyyətin verilməməsi;*

***- qeydə alınmış namizədin seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmaması;***

***- seçici imzalarının toplanması qaydasının pozulması*** *– yəni mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin, dövlət və bələdiyyə orqanlarının, qurumların və təşkilatların seçici imzalarının toplanılmasında iştirak etməsi;*

***- seçkilərin (referendumun) maliyyələşdirilməsi və ya maliyyə hesabatlarının təqdim edilməsi qaydalarının pozulması*** *– yəni seçkilərin hazırlanmasına və keçirilməsinə ayrılmış vəsaitlərin xərclənməsi hesabatları barədə qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları tərəfindən maliyyə hesabatlarının təqdim və ya dərc edilməməsi;*

***- anonim təşviqat materiallarının və ya reklamların hazırlanması və yayılması qaydalarının pozulması*** *– yəni seçkiqabağı və ya referendumla bağlı nəşr və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumatların göstərilməməsi, siyasi partiyalar, siyasi partiyaların blokları, namizədlər və ya qeydə alınmış namizədlər barəsində reklamların hazırlanmasının və yayılmasının, yaxud xeyriyyə xidməti göstərilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydalarının pozulması, siyasi partiyaların, siyasi partiyaların bloklarının, namizədlərin və ya qeydə alınmış namizədlərin yazılı formada razılığı olmadan seçkiqabağı nəşr materiallarının hazırlanması, yaxud yayılması;*

***- səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında məlumatın bilərəkdən təqdim edilməməsi və ya dərc olunmaması*** *– yəni seçicilərin, qeydə alınmış namizədin, siyasi partiyaların, siyasi partiyaların bloklarının, referendum üzrə təşviqat qruplarının və namizədlərin vəkil edilmiş şəxslərinin, müşahidəçilərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələrinin tələbi ilə onların tanış olmaları üçün müvafiq seçki komissiyasının sədrləri tərəfindən səsvermənin yekunlarına və nəticələrinə aid məlumatların bilərəkdən təqdim edilməməsi.*

İnzibati Xətalar Məcəlləsinin tələbinə əsasən, inzibati xəta törədərkən 16 yaşı tamam olmuş fiziki şəxslər, öz qulluq vəzifələrinin yerinə yetirilməməsi ilə bağlı vəzifəli şəxslər, hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər bu məcəllə ilə nəzərdə tutulmuş inzibati xətalara görə inzibati məsuliyyətə cəlb olunurlar.

Seçki hüququnun pozulmasına görə yuxarıda qeyd olunduğu kimi, mülki məsuliyyət də nəzərdə tutulmuşdur. Mülki Məcəlləyə əsasən, namizədlərin və digər şəxslərin onların şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını, həmin məlumatların yayılması nəticəsində vurulmuş zərərin ödənilməsini tələb etmək hüquqları vardır. Həmçinin təşviqat materiallarından müəllifin razılığı olmadan istifadə zamanı əqli mülkiyyət hüquqlarının pozulmasına görə vurulmuş zərərlə bağlı şəxs hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət edə bilər.

Qeyd etdiklərimizi yekunlaşdırdıqda belə nəticəyə gəlmək olar ki, seçki hüququnun pozulmasına görə məsuliyyət nəzərdə tutan normaların qanunvericiliyə daxil edilməsi və təkmilləşdirilməsi yüksək demokratik tələblərə cavab verən seçkilərin keçirilməsini təmin etməklə vətəndaşların seçki hüququnun qanunauyğun şəkildə həyata keçirilməsinə xidmət edir.

**Yusifəli QURBANOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi***

***Oktyabrın 3-də Mərkəzi Seçki Komissiyasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 24 qapalı seçki məntəqəsinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvlərinin iştirakı ilə seminar-treninq keçirilmişdir.***

# Növbəti seminar-treninq



Seminarı giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov prezident seçkilərinə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikasında aparılan işlərdən bəhs etmişdir. Bildirilmişdir ki, seçkilər günü saat $7^{50}$-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib möhürləyir, saat $8^{00}$-də səsvermənin başlandığını elan edir. Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının bir hissəsinin gözəgörünməyən mürəkkəblə əvvəl işarələnib-işarələnmədiyini yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir. Barmağının maye ilə işarələnməsindən imtina edən seçiciyə ona seçki bülleteninin verilməyəcəyi izah edilir. Seçici razılaşmadıqda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır. Seçici razılaşarsa, seçicinin sol əlinin baş barmağı işarələnir. Seçiciyə seçki bülleteni seçici vəsiqəsi ilə birlikdə şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə verilir. Seçici seçki bülletenini aldıqdan sonra seçicilər siyahısına şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi yazılır. Təqdim olunmuş şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi seçicilər siyahısına məntəqə seçki komissiyasının üzvü tərəfindən qeyd edilir. Seçici aparılan qeydlərin düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir. Seçicinin seçki bülletenini sərbəst almaq imkanı olmadıqda o, məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, başqa şəxslərin köməyindən istifadə edə bilər. Seçki bülleteni seçiciyə verilərkən onun nömrələnmiş sol küncü məntəqə seçki komissiyasının üzvü tərəfindən kəsilmə xətti boyunca kəsilir və özündə saxlanılır. Hər bir seçici şəxsən və təklikdə səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir. Seçki bülleteni seçicidən başqa, heç kəsin daxil olmasına icazə verilməyən, gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş otaqda və ya kabinədə doldurulur. Seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan seçici məntəqə seçki komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi kömək üçün otağa və ya kabinəyə çağıra bilər. Bu şəxsin soyadı və inisialı seçicilər siyahısında seçki bülleteni alınması barədə seçicinin imzası ilə birgə göstərilir. Seçici doldurulmuş seçki bülletenini səsvermə üçün nəzərdə tutulmuş seçki qutusuna salır. Qeyd olunmuşdur ki, seçki qutuları məntəqə seçki komissiyası üzvlərinin və müşahidəçilərin maneəsiz müşahidə edə bildikləri yerdə qoyulmalıdır. Məntəqə seçki komissiyasının sədri səsvermə yerində qaydaqanuna nəzarət edir. Onun göstərişləri səsvermə otağında olan şəxslər üçün məcburidir. Məntəqə seçki komissiyasının sədri seçki məntəqəsində olmadıqda onu məntəqə seçki komissiyasının katibi və ya komissiyanın bu vəzifələr həvalə olunmuş üzvü əvəz edir. Seçici seçki bülletenini doldurarkən səhv etdiyini bildirərsə, ona seçki bülleteni vermiş məntəqə seçki komissiyası üzvündən korlanmış seçki bülleteninin əvəzinə yeni seçki bülleteni verməsini xahiş edə bilər. Bu halda seçki komissiyasının üzvü korlanmış bülleteni ortadan kəsməklə ləğv edir, ayrıca zərfə qoyur, seçiciyə yeni bülleten verir və seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd aparır. Bu barədə dərhal ayrıca akt tərtib olunur.

Sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının əməkdaşları və 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsi dairə seçki komissiyasının katibi Ramal Salmanov məntəqə seçki komissiyası protokolunun doldurulma qaydasını bəndlər üzrə slaydlarla izah etmişlər.

Tədbirdə seçki komissiyaları üzvlərini maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

# Sabitliyə, yüksəlişə, sağlam və işıqlı gələcəyə səs verəcəyik

## *Sədərəkdə hamı belə düşünür, seçki gününü səbirsizliklə gözləyir*

**Sədərək rayonunda fəaliyyət göstərən 7 seçki məntəqəsi 1 saylı Şərur-Sədərək Seçki Dairəsinin tərkibinə daxildir. Bəri başdan qeyd edək ki, məntəqələr 9 oktyabr prezident seçkilərinə tam hazırdır. 1-1 saylı Heydərabad seçki məntəqəsi Heydərabad qəsəbə tam orta məktəbinin binasında yerləşir. Yolumuzu oradan salanda gördük ki, burada xeyli gənc var. Onlar məlumat lövhələri ilə tanış olur, seçici siyahılarına baxırdılar.**

Bu il ilk dəfə səs verəcək İntiqam Məmmədovla tanış olduq və onun fikirlərini öyrəndik. İ.Məmmədovun dediklərindən:

– Düzünü deyim ki, çox həyəcanlıyam. İlk dəfə seçki məntəqəsinə gələcəyəm və ürəyimdə olan namizədə səs verəcəyəm. Axı gələcəyimiz, inkişaf və yüksəlişimiz səs verəcəyimiz həmin namizədlə bağlıdır. Ona görə də bu vacib məsələdə yanlışlığa yol vermək olmaz.

Söhbət zamanı məntəqənin sədri Nəsimi Rzayev bildirdi:

– Məntəqəmizdə veb-kamera quraşdırılıb. Son dəqiqləşməyə əsasən, seçicilərimizin sayı 1794 nəfərdir. Seçkilərin azad, obyektiv və şəffaf keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

1-2 saylı Sədərək seçki məntəqəsi Sədərək kənd mədəniyyət evinin binasında yerləşir. Məntəqə seçkilərə, demək olar ki, hazırdır. Otaqlar təmir olunmuş, telefon, işıq, su sistemi qaydaya salınmış, mebel və digər avadanlıqlarla təmin edilmişdir. Bu məntəqədə 1782 seçici səs verəcəkdir.

Leyla Qasımovanın 90 yaşı var. Sədərək kəndində yaşayır. Nəvəsi ilə məntəqəyə adının siyahıda olub-olmadığını yoxlamağa gəlmişdi. Danışığı sərbəst, hərəkəti, sözü-söhbəti yerindədir. Fikirlərini belə ifadə etdi:

– Yaşımı mən dedim, indi siz hesablayın görün, bütün ömrüm boyu neçə dəfə səs vermişəm? Bu seçkidə yenə də inkişafa, bu günə qədər etibar etdiyim namizədə səs verəcəyəm. İnanıram ki, bütün seçicilər də elə mənim kimi düşünürlər.

Yolumuzu 1-6 saylı Qaraağac seçki məntəqəsinə də saldıq. Məntəqə Qaraağac kənd tam orta məktəbinin binasında yerləşir. Burada seçicilərin sayı 1455 nəfərdir. Məntəqənin yerləşdiyi ərazi tam təmir olunmuş, hər cür zəruri avadanlıqlarla təmin edilmişdir.

Burada Qaraağac kənd tam orta məktəbinin müəllimi, seçici Məhərrəm Seyidovla həmsöhbət olduq:

– Son illər Qaraağacda geniş tikinti-abadlıq işləri aparılmış, yeni kənd mərkəzi və məişət evi tikilmiş, yol çəkilmiş, su, qaz, elektrik enerjisi və sair sosial məsələlər öz həllini tapmışdır. Kənd adamlarının ildən-ilə gəlirləri artır, həyat şəraiti, gün-güzəranı yaxşılaşır. Demək istəyirəm ki, kənd sakinləri, əslində, öz ürəklərində seçimlərini çoxdan ediblər. Sadəcə olaraq, seçki günü məntəqəyə gəlmək və seçdiyin namizədə səs vermək qalır. O namizədə ki, bizə rahat, sakit və firavan həyat verməyə qadirdir, gələcəyimizi, həyatımızı ona bağlaya bilərik. Kim istəməz ki, yaxşı yaşasın, yeri olsun, yüksək əməkhaqqı alsın. Əlbəttə, bunu hamı istəyir. Buna görə deyirəm ki, axı bizim çoxumuz 1990-1993-cü illərdəki ixtisasına, qabiliyyətinə uyğun iş anarxiyanı, başıpozuqluğu, dərəbəyliyi görmüşük. Bunları unutmaq olmaz.

Bütövlükdə Azərbaycanımızda, eləcə də muxtar respublikamızda gedən dinamik inkişaf və yüksəlişi Sədərəyin, elə bizim Qaraağacın timsalında aydın görmək olar. Deməli, hamının arzusu, məqsədi və diləyi budur: sabitliyə, yüksəlişə, sağlam və işıqlı gələcəyə səs vermək!

✍ **C.ƏLİYEV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2013-cü ilin sentyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 805 | 48,3 | 49,0 | 101,4 |
| 2. | Culfa rayonu | 952 | 57,1 | 57,7 | 101,1 |
| 3. | Şahbuz rayonu | 330 | 19,8 | 20,0 | 101,0 |
| 4. | Kəngərli rayonu | 483 | 29,0 | 29,2 | 100,7 |
| 5. | Sədərək rayonu | 260 | 15,6 | 15,7 | 100,6 |
| 6. | Babək rayonu | 1399 | 83,9 | 84,2 | 100,4 |
| 7. | Şərur rayonu | 1782 | 106,9 | 107,1 | 100,2 |
| 8. | Naxçıvan şəhəri | 2581 | 154,9 | 155,0 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 27467 | 1648,0 | 1649,4 | 100,1 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **36059** | **2163,5** | **2167,3** | **100,2** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 36 milyon 59 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 163 min 500 manat olmuş, cəmi 2 milyon 167 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2013-cü ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 570235 | 57024 | 57173 | 100,3 |
| 2. | Sədərək rayonu | 83960 | 8396 | 8414 | 100,2 |
| 3. | Şahbuz rayonu | 245011 | 24501 | 24551 | 100,2 |
| 4. | Naxçıvan şəhəri | 709903 | 70990 | 70990 | 100,0 |
| 5. | Babək rayonu | 489050 | 48905 | 48905 | 100,0 |
| 6. | Ordubad rayonu | 382885 | 38289 | 38289 | 100,0 |
| 7. | Culfa rayonu | 371234 | 37123 | 37123 | 100,0 |
| 8. | Kəngərli rayonu | 221848 | 22185 | 22185 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5262168 | 526201 | 526156 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **8336294** | **833614** | **833786** | **100,0** |

*3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsi prezident seçkilərinə hazırlıq işlərini yüksək səviyyədə həyata keçirib. Dairə üzrə 40 min 823 nəfər seçici qeydiyyata alınıb. Bunu qəzetimizə müsahibəsində dairə seçki komissiyasının sədri Zahid Ələkbərov deyib.*

## 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsi prezident seçkilərini uğurla başa vuracaq

Komissiya sədri bildirib ki, seçkilər hər bir xalqın tarixində mühüm rol oynayan, onun gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi proses kimi xarakterizə olunur. Bu prosesin məntiqi yekunu olaraq hər bir xalq öz taleyini inandığı, etibar etdiyi siyasi qüvvə və insanlarla bağlayır. Dairə üzrə Kəngərli rayonundan 19 min 140, Babək rayonundan 15 min 111, Naxçıvan şəhəri üzrə 6 min 572 seçici qeydiyyata alınıb. Kəngərli rayonundan 557, Babək rayonundan 376, Naxçıvan şəhərindən 144 nəfər ilk dəfə səs verənlərdir. Seçicilərin 43 faizini gənclər təşkil edir. Ümumilikdə, dairə üzrə seçicilərin 19 min 755 nəfəri kişilər, 21 min 68 nəfəri qadınlar olacaq. Səsvermə 46 seçki məntəqəsində həyata keçiriləcək.

Komissiya sədri onu da deyib ki, qarşıdan gələn prezident seçkilərinə hazırlıq işləri tam həyata keçirilib, seçici siyahılarının dəqiqləşdirilməsi başa çatdırılıb, bütün səsvermə məntəqələri hazır vəziyyətə gətirilib, xarici və yerli müşahidəçilərin seçki günü səsvermənin gedişini izləmələri üçün lazımi şərait yaradılıb. Qeydə alınan namizədlərin rayon ərazisində təşviqat apara bilmələri qanunvericiliyə müvafiq olaraq təmin edilib, namizədlərin təbliğat-təşviqat materiallarının yerləşdirmələri üçün lövhələr quraşdırılıb. Bütün seçki məntəqələri telefonlaşdırılıb, məntəqələrin seçki günü fasiləsiz elektrik enerjisi ilə təmin olunmaları üçün müvafiq tədbirlər görülüb. Seçicilərin namizədlərlə görüşlərinin keçirilməsi üçün müvafiq yerlər ayrılıb. 5 məntəqədə isə veb-kameralar quraşdırılıb. Artıq əminliklə demək olar ki, 3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsi qarşıdan gələn prezident seçkilərinə tam hazırdır.

✍ **S.HÜSEYNOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Alınan mala mağaza zəmanət verməyibsə, mal xarab çıxıbsa, nə etmək olar?*

**Cavab:** İstehsalçı (icraçı) malın (işin, xidmətin), həmçinin komplektləşdirici məmulatların qanunvericilikdə nəzərdə tutulan zəmanət müddəti ərzində, bu müddətlərin olmadığı hallarda isə müqavilə ilə müəyyənləşdirilmiş qaydada normal işini (tətbiqini və istifadəsini) təmin edir. İstehlakçı satıcı (istehsalçı, icraçı) qarşısında zəmanət müddəti müəyyən edilməmiş mallarda aşkar olunmuş qüsurlar barədə, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 589.2-ci maddəsi ilə müəyyən edilmiş 2 il və daha uzun müddətdən gec olmamaq şərti ilə öz tələblərini irəli sürmək hüququna malikdir.

*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi*

## İdmançımız Avropa çempionatında birinci yeri tutub

Polşada gənclər arasında kikboksinq üzrə Avropa çempionatı keçirilib. Çempionata milli komandamızın tərkibində muxtar respublikamızın idmançısı Ruslan Musayev də qatılıb. Yarışda 51 kiloqram çəkidə mübarizə aparan həmyerlimiz bu dəfə daha yaxşı döyüş nümayiş etdirərək rəqibi üzərində tam üstünlüklə qələbə qazanıb. Avropa çempionu Ruslan Musayev yarışda qazandığı uğurlu nəticəyə görə diplom və medalla mükafatlandırılıb.

## XII muxtar respublika çempionatına start verilib

Ötən həftə start verilmiş 2013-2014-cü ilin futbol mövsümündə keçiriləcək Naxçıvan Muxtar Respublikası çempionatında on komanda iştirak edir. Bu il çempionatın keçirilmə əsasnaməsində bir sıra dəyişikliklər edilmişdir. Belə ki, ölkə çempionatında iştirak edən "Araz" peşəkar futbol klubuna ehtiyat qüvvənin hazırlanması əsas məqsəd kimi nəzərə alınaraq, muxtar respublika çempionatının iştirakçılarına yaş həddinin tətbiq edilməsi qərara alınmışdır. Komandaların heyətində altı nəfər 18 yaşa qədər və beş nəfər 19-20 yaşlı futbolçuların iştirakına icazə verilmişdir. XII futbol çempionatının digər maraqlı cəhətlərindən biri də "Araz" peşəkar futbol klubunun eyniadlı hazırlıq qrupunun çempionatda iştirak etməsidir.

Çempionatda iştirak edən istedadlı və ümidverici futbolçularımızın il ərzində seçilməsi və bu komandanın ətrafında birləşdirilməsi də əsas məqsədlərdəndir.

Çempionatın birinci turunun oyunlarının nəticələri aşağıdakı kimidir:

| | | |
|---|---|---|
| *"Batabat" Şahbuz* | *2:1* | *"Kəngərli" Kəngərli* |
| *"Dübəndi" Ordubad* | *0:4* | *"DİN FK" Naxçıvan* |
| *"Arpaçay" Şərur* | *2:3* | *"Babək" Babək* |
| *"Universitet" NDU* | *2:3* | *"Sədərək" Sədərək* |
| *"Araz-2"Naxçıvan* | *–* | *"Əlincə" Culfa* |

"Araz-2" komandasının heyətinin tam formalaşdırılmaması səbəbindən "Araz-2"-"Əlincə" komandalarının oyununun nəticəsi Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının nizam-intizam komissiyasının qərarından sonra müəyyənləşəcəkdir.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

***İtmişdir***

Hüseynov Mütəllim Bayram oğlunun adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 897